# Şərəfli peşə sahibi



Hüsü Mirzəxan oğlu Həsənov 1934-cü il avqustun 18-də Qərbi Azərbaycanın Zəngəzur mahalının Qafan rayonu Yuxarı Gödəkli kəndində anadan olmuşdur. 1 yaşı tamam olmamış atası Mirzəxan kişi dünyasını dəyişir. Üç qardaş—Feyzi, Xəlil, Hüsü və iki bacı Səriyyə, Münəvvər anaları Gilə xanımın himayəsində qalırlar. Hüsü 7 illik məktəbi doğma kəndində bitirdikdən sonra 1948-51-ci illərdə Qafan şəhərindəki 1 N-li məktəbdə orta təhsilini başa vurur. Həmin ildə Azərbaycan Dövlət Universitetinin (indiki BDU) geologiya-coğrafiya fakültəsinə qəbul olur. Üç ildən sonra bu fakültədə mühəndis-geoloq ixtisası üzrə formalaşır. 1957-ci ildə universiteti bitirəndə ona mühəndis-geoloq ixtisası verilir.

Geologiya və minerologiya elmləri üzrə fəlsəfə doktoru, Böyük Vətən Müharibəsinin veteranı Hüsü Mirzəxan oğlu Həsənov 1941-1945-ci illərdə müharibənin ən qızğın çağlarında arxa cəbhədə göstərdiyi əmək fəaliyyətinə görə 6 iyun 1945-ci ildə SSRİ Ali Sovetinin fərmanına əsasən "Böyük Vətən müharibəsi illərində fədakar əməyinə görə" medalla mükafatlandırılmışdır.

1952-ci ildə Azərbaycan Dövlət Universitetinin (Bakı Dövlət Universiteti) geoloji-coğrafiya fakültəsinə daxil olan Hüsü Həsənov 1957-ci ildə faydalı qazıntıların geologiyası və kəşfiyyatı ixtisası üzrə tam kursu bitirmişdir. Dövlət İmtahan Komissiyasının 1957-ci il 22 iyun tarixli qərarı ilə ona mühəndis-geoloq ixtisası verilmişdir. 1957-ci ilin avqustunda Azərbaycan Geologiya İdarəsində işə qəbul edilən gənc kadr Dəlidağ Geoloji-Planaalma Partiyasında böyük kollektor vəzifəsinə işləməyə göndərilir. 5 ay böyük kollektor işlədikdən sonra onu Xanlar rayonundakı Kərpic zavodunun kəşfiyyat partiyasının rəisi təyin edirlər. Geoloji kəşfiyyat işləri aparıb gil yatağı aşkar edir və zavodu gillə təmin edir.

Hüsü müəllim Nazilə xanımla ailə həyatı qurmuş və 4 övlad böyüdüb tərbiyə etmişlər. Onların hər biri ali təhsil almış, şərəflə dövlətimizə qulluq edirlər. Qızı Gülnarə Azərbaycan Tibb Universitetini bitirib həkim, Gülbəniz Bakı Dövlət Universitetini bitirib hüquqşünas, oğlu Eldəniz dövlət qulluğunda işləyir.

Hüsü Həsənov 1958-ci ildən başlayaraq Kiçik Qafqazdakı geoloji-planaalma partiyalarında geoloq, baş geoloq vəzifələrində çalışır. 1965-ci ildən 2011-ci ilə kimi Kiçik Qafqazdakı geoloji planaalma işlərini özü aparıb.

Geologiyada geoloji planaalma işləri ən çətin, məsuliyyət tələb edən ağır işdir.

Hüsü Həsənov respublikada yeganə mütəxəssisdir ki, bu çətin, zəhmət tələb edən, məsuliyyətli işdə 57 il fasiləsiz işləyib. SSRİ Geologiya Nazirliyinin 1956 və 1987-ci illərdə buraxdığı təlimatlara uyğun olaraq 1:50000 və 1:25000 miqyaslarda geoloji planaalma işlərini Kiçik Qafqazın mərkəzində və Şimal-Şərq yamaclarında aparıb, ərazilərin geoloji quruluşlarında, tektonikalarında, inkişaf tarixlərində faydalı qazıntıların yerləşmə qanunauyğunluqlarında xeyli yeniliklər edib. Şəmkir qalxımında ilk dəfə Üst-Orta Karbon çöküntülərini, Qazax çökəkliyində Titon, Alt Təbaşir, Üst Eosen yaşlı çöküntüləri, Murovdağ qalxımının cənubunda Torağçay çökəkliyində Paleogen yaşlı çöküntüləri aşkar edib, respublikanın geoloji xəritəsinə stratiqrafiyası ilə yanaşı, maqmatizmin inkişafında, geoloji inkişaf tarixində, yeni faydalı qazıntıların çıxışlarının aşkar edilməsində və təzahürlərin qanunauyğun yerləşmələrində də faydalı qazıntılar xəritəsini zənginləşdirib, tərtib edib.

1999-2004-cü illərdə Daşkəsən rayonunun ərazisində 400.0 kilometr ərazidə 1:25000 miqyasda axtarış nəticəsində bir sıra yataqlar aşkar edilmiş, tərtib edilmiş geoloji hesabatda sahələr üzrə aparılacaq işlərin ardıcıllıqları, miqyasları və faydalı qazıntıların yerləşmə qanunauyğunluqları dəqiq verilmiş və proqnoz ehtiyatları kateqoriyalar üzrə hesablanmışdır. Hüsü Həsənov 2005-2010-cu illərdə Acınohur çökəkliyinin Şimal-Qərbində və Qanıxçayın sol sahilində 600,0 kvadratmetr ərazidə 1:50000 miqyasda geoloji planaalma işləri aparıb, ərazidə ilk dəfə paleontoloji qalıqlara və çöküntülərin stratiqrafik yerləşmələrinə əsasən qalınlıqları 1400,0 metr olan və 10 kilometr məsafədən izlənən, qumun konqlomeralarda üstünlük təşkil etdiyi Ağcagil, Abşeron yaşlı çöküntüləri aşkar edibdir.

2008-2011-ci illərdə Murovdağ filiz rayonunda 1:25000 miqyasda geoloji planaalma işləri aparmaq Hüsü Həsənova tapşırılır. O, 40,0 kvadratmetr ərazidə müasir tələbata cavab verən geoloji planaalma işləri aparıb. Qaraçayla-Buzluqçayın aralarında qalan sahədə bazaltların yayıldığı sahələri aşkar edir. Şırım sınaqlaşdırma işləri aparır. Sınaqlar Azərbaycan MEA-nın Geologiya İnstitutunun Analitik Mərkəzində analiz edilir. Sınaqlarda Pt, Pl, Au, Ag və digər elementlərin maraq kəsb edən faizləri təyin edilir. Lakin layihədə nəzərdə tutulan işi yerinə yetirməmiş onu yaşa görə işdən azad edirlər. Həsənov işdən azad olunmasına baxmayaraq təklif edir ki, bazaltın yayıldığı sahələrdə almazın sputniki olan pirop elementinin axtarışına dəqiq fikir verilsin. Orada almaz təzahürünü aşkar etmək mümkündür. SSRİ Geologiya Nazirliyi və Həmkarlar İttifaqının Mərkəzi Komitəsinin Rəyasət Heyəti Həsənovun geologiya sahəsindəki əməyini yüksək qiymətləndirib onu yerin "Əla kəşfiyyatçı" nişanı ilə təltif ediblər. Hüsü Həsənov 1966 və 1984-cü illərdə SSRİ-də təşkil olunmuş Beynəlxalq Geoloji Konqresin iştirakçısı olmuşdur. O, konqres iştirakçılarına respublikanın geoloji quruluşuna aid ətraflı məlumat verdi.

Moskvada keçirilən XXVII Beynəlxalq Dünya Geoloqlarının forumunda xüsusi diplomla, gümüş nişanla təltif edilən Hüsü Həsənov 1981-ci ildə istehsalatdan ayrılmadan dissertasiya işini uğurla müdafiə edir. O, 1996-1998-ci illərdə Türkiyənin, Gürcüstanın, Kiçik Qafqazın ərazilərini korelasiya edərək yüksək səviyyəli hesabat yazmışdır. Azərbaycan MEA-nın 70 illiyinə həsr edilmiş 1:500000 geoloji xəritənin və VI cildlik əsərlərin müəllifidir. Hazırda Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Milli Geoloji Kəşfiyyat Xidmətinin Ekspedisiyalarında çalışan geoloqlardan bir çoxu onun yetirmələridir.

Həsənov – 24 geoloji hesabatın, 45 məqalənin müəllifidir.

2011-ci ildən hazırkı vaxta kimi Fövqəladə Hallar Nazirliyi tərəfindən təsdiq edilmiş işçi qrupunun üzvüdür və geoloq vəzifəsində çalışır. Hüsü Həsənov 1996-cı ildə Geologiya və Mineral Ehtiyatları Komitəsi tərəfindən Bayıl sahəsində vəziyyəti öyrənmək üçün göndərilir ki, o sahədə inşa edilən ofis barədə məlumat versin. Geologiya sahəsində dərin, mükəmməl biliyi olan Hüsü Həsənov sahəni tam gəzib vəziyyətlə tanış olandan sonra ofisi inşa edənlərə bildirir ki, sahədə sürüşmə gözlənilir. Təklif yazılı surətdə geologiya və Mineral Ehtiyatlar Komitəsinə təqdim edilir və orada tikinti işləri aparılması qadağan edilir. Hüsü Həsənov Yaponiya mütəxəssisləri ilə birlikdə Bayıl sürüşmə sahəsinin ümumi vəziyyətini ətraflı təhlil edir. Hüsü Həsənov Bayıl sahəsinə aid tərtib etdiyi planla sahəni 3 hissəyə bölür və onun bu unikal təklifi bəyənilir, böyük fayda verir.

Həmkarları Hüsü Həsənovla fəxr edir. Şərəfli peşə sahibinin fasiləsiz olaraq geologiyada irimiqyaslı geoloji xəritələrin tərtibində 57 illik əmək fəaliyyəti vardır.

Yavər NURİYEV.